Həqiqətən, ruqyə, təmimələr

Abdullah bin Məsuddan (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə dediyini eşitdim: "Həqiqətən, ruqyə, təmimələr və tivələ (sevgi tilsimi) şirkdir."
[Səhih] [Əbu Davud,İbnu Məcə və Əhməd rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) Allaha şərik qoşulacaq bəzi əməlləri bəyan etmişdir: Birincisi: Ruqyə - Cahiliyyə dövrü insanların şəfa dilədikləri şirki ehtiva edən sözlər. İkincisi: Təmimələr - nəzərdən qorunmaq üçün uşaqların, heyvanların və s. boyunlarına taxılan, muncuqlar və bənzəri şeylərdən hazırlanmış əşyalar. Üçüncüsü: Tivələ - ər və qadının birinin digərini sevməsi üçün hazırlanan əşya. Sözügedən əşyaların səbəb kimi istifadə edilməsinə görə bu əməllər şirkdən hesab edilir, həqiqətdə bu əşyalar nə şərii dəlillərə əsaslanan səbəblərdir, nə də ki, təcrübə ilə əldə edilən duyulan, hissi səbəblərdir. Lakin Quran oxumaq kimi şərii və dərman qəbulu kimi təcrübə ilə sabit olan toxunma və hissi orqanlarla dərk edilən səbəblər və bunların sadəcə səbəb olmasına etiqad etmək icazəlidir və hər bir halda xeyirin və zərərin Allahın əlində olmasına etiqad etmək gərəkir.

http://sunnah.global/hadeeth/az/show/5273